# UNEC tələbəsi birinci oldu

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tələbəsi, Yaradıcılıq Mərkəzinin üzvü Rəvan Mehdizadə Azərbaycan Gənclər Fondu, Azərbaycan Tələbə Gənclər Təşkilatı və Odlar Yurdu Universiteti tərəfindən keçirilən "Xarı bülbül" mahnı və rəqs müsabiqəsində 1-ci yeri qazanıb.

UNEC Biznes Məktəbində (MBA proqramı) "Proqram təminatı mühəndisliyi" ixtisasının magistrantı Rəvan Mehdizadə müsabiqənin finalında musiqisi Tərlan Məmmədhüseynov və Elçin Cəfərova, sözləri Sabir Rüstəmxanlıya aid olan "Zəfər" mahısını ifa edərək, "Bəstəkar mahnısı" ifaçılığı nominasiyası üzrə qalib olub.

Az.müəl.-2023.- 13 yan.-S.3.